Ədalət TAHİRZADƏ

# İMPERATOR AĞAMƏHƏMMƏD ŞAH QACAR

QANUN NƏŞRİYYATI

Bakı – 2020

بسم الله الرحمن الرحيم

Bu kitab XVIII yüzildə dünyanın ən görkəmli hökmdarlarından biri, əzəmətli türk Qacar imperatorluğunun qurucusu Ağaməhəmməd şah Qacarın (1742-1797) yaşamından və işlərindən danışır. Çoxsaylı qaynaqların incələnməsi sonucunda yazılmış bu əsər müəllifin Azərbaycan tarixşünaslığında ilk dəfə qələmə aldığı və bir neçə dəfə nəşr edilmiş "Ağaməhəmməd şah Qacar. (Tərcümeyi-hal oçerki)" kitabı (ilk nəşri: Bakı: "Kür" nəşriyyatı, 2002) əsasında hazırlanıb.

Kitab bütün təbəqələrdən olan oxucular, özəlliklə məktəb yaşlı uşaqlar üçün nəzərdə tutulub.

**TAHİRZADƏ Ədalət Şərif oğlu.**
**İMPERATOR AĞAMƏHƏMMƏD ŞAH QACAR.**
**Bakı: "Qanun" nəşriyyatı, 2020, 40 səh.**

Korrektor: Əyyar Tahirov
Dizayn: Ramil Akifoğlu

"Qanun" nəşriyyatı:
Bakı, AZ 1102, Tiflis prosp., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+494 55) 212-42-37
E-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing

ISBN 978-99-52-36-

© Ədalət TAHİRZADƏ

Bu kitabın yayım hüquqları "Qanun" nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının qanununa ziddir.

**Bəxtiyar VAHABZADƏ**

# ŞAHLAR BİZİM OLDU, ZƏFƏR ÖZGƏNİN...

**(Ön söz yerinə)**

Gözümüzü açandan qəddar İran şahı kimi tanıdığımız Ağaməhəmməd şah Qacarın xalis türk oğlu olduğunu Rusiyanın Azərbaycanı işğal etmək niyyətini puça çıxarmaq amalına xidmət etdiyini mənə ilk dəfə mərhum tarix professoru Zülfəli İbrahimov (1910-1972) demişdi. O, mənə verdiyi bu məlumatla Ağaməhəmməd şah Qacar haqqında oxuduqlarımdan ürəyimə düşmüş qara xalı yuyub apardı. O zamandan bu böyük türk sərkərdəsinin həyat və fəaliyyətini öyrənmək həvəsinə düşsəm də rus və Avropa tarixçilərinin yazdıqları məni qane etmir və rəhmətlik Z.İbrahimovun dediklərinin təsdiqini axtarırdım.

1993-cü ildə Jan Gevrin "Gənclik" nəşriyyatında buraxılan "Xacə şah" romanını oxudum. Bədii əsər olduğundan, əlbəttə, burada tarixi faktlarla yazıçı fantaziyası bir-birinə qarışmış və buna görə də Ağaməhəmməd şah Qacarın həqiqi simasını və dövlət xadimliyinin tarixi gerçəkliyə nə qədər uyğun olduğunu müəyyənləşdirə bilmədim.

1996-cı ildə tarix professoru Süleyman Əliyarlının redaktorluğu ilə buraxılan "Azərbaycan tarixi" kitabından bu böyük türk imperatorunun hansı böyük amalla yaşadığını və nəyin naminə qılınc çaldığını öyrəndim. Ancaq bu da Azərbaycan tarixində əvəzsiz xidmətləri olan bu böyük şəxsiyyətin əməllərinin, çaldığı zəfərlərin, qazandığı uğurların təfsilatını tam bilmək üçün yetərli deyildi.

Son illərdə yazdığı kitabları və məqalələri ilə məni sevindirən, əməlləri məramıma və qayəmə unison olan keçmiş tələbəm Ədalət Tahirzadənin böyük türk xaqanı Nadir şah haqqında kitabını oxudum. 700 ilə yaxın İran səltənətində hökm sürən türk sülalələri içərisində Səfəvilər haqqında nisbətən geniş məlumatımız var. "Nadir şah Əfşar" kitabında Əfşar sülaləsinin banisi Nadir şahın fütuhatlarını oxuyanda ürəyimdən keçdi ki, kaş Ə.Tahirzadə Qacar sülaləsinin başçısı Ağaməhəmməd şah Qacar haqqında da belə kitab yazaydı. Bunu ona görə zəruri hesab edirəm ki, Ə.Tahirzadənin yazdığı kimi, böyük şair və mənim ustadım Səməd Vurğunun qüdrətli qələmi ilə yaranmış Qacar obrazı xalqda bu böyük türk oğlu haqqında mənfi təəssürat yaratmışdı.

70 il bütün Sovetlər Birliyinin, o sıradan Azərbaycanın da ədəbiyyat və sənətində hakim olan sosializm realizmi nəzəriyyəsi tarixə və bugünə münasibətdə sinfiliyi əsas götürürdü. Tarixə münasibətdə bu nəzəriyyə özünü daha qabarıq şəkildə göstərirdi – guya keçmişdə nə varsa hamısı pis olmuş, bütün gözəlliklər yalnız Oktyabr inqilabından sonra yaranmışdır. Buradan belə çıxır ki, şahlar, sultanlar, xanlar, bəylər – hamısı xalqa zülm verən, onu istismar edən pislərdir, zülmə məruz qalan aşağı təbəqə isə yaxşılardan ibarətdir.

Mən 1969-cu ildə yazdığım "416" poemamda bu məsələyə ötəri toxunmuşdum:

*Gətir xatirinə Səfəviləri,*
*Bəs niyə o zaman başda tac olduq?!*
*Gerçəyi yalana satandan bəri*
*Ağıllı bir başa biz möhtac olduq.*
*Bəzən özümüzü bəyənmədik biz,*
*Dedik: "Filankəsə gərək oxşayaq".*
*Yandı öz bağımız... Fikir çeşməmiz*
*Özgə bağlarını suladı ancaq.*
*"Heç kəs inciməsin, - dedik, - qoy bizdən",*
*Yandıq yad evində biz çıraq kimi.*
*"Buyur" deyə-deyə, hörmətimizdən*
*Qonağı elədik evin sahibi.*
*Bizim böyük-böyük ustadlarımız*
*"Xəmsə"lər bağladı özgə dilində.*
*Yadın malı oldu bizim varımız,*
*Babam talan oldu öz mənzilində.*

*Yada abidələr ucaldıb dedik:*
*"Fəhləlik bizimdir, ustalıq sənin".*
*Çox zaman özgəyə qulluq elədik,*
*Beyin bizim oldu, əsər özgənin.*
*...Şahlar bizim oldu, zəfər özgənin.*
*Saldıq özümüzü özümüz gözdən,*
*Kül ilə oynadıq – əl çəkib közdən.*
*Ölkələr nur aldı şəfəqimizdən,*
*Günəş bizim oldu, səhər özgənin.*
*Babam yer şumladı, babam yer əkdi,*
*Əmək bizim oldu, bəhər özgənin.*
*Açdı sinəsini bizə bu torpaq,*
*Aləmi bəzəyib lüt olduq ancaq.*
*Cıdırda çapsaq da hamıdan qabaq,*
*Hünər bizim oldu, nəmər özgənin.*
*Qızıl bizim oldu, kəmər özgənin.*

Məsələyə bu başımdan yanaşanda Ə.Tahirzadənin oxuculara təqdim etdiyi "Ağaməhəmməd şah Qacar" kitabı çox vaxtında yaranmışdır və uzun illər boyu bu böyük şəxsiyyətin xalqımıza qəddar, qaniçən, zülmkar kimi təqdim olunmasına qarşı çıxaraq onun böyük şəxsiyyətini, Vətənimizə elədiyi xidmətləri ortaya qoymuşdur.

Bir neçə tarixi əsərin müəllifi olduğuma baxmayaraq, deməliyəm ki, mən özüm də Ağaməhəmməd şah Qacarı olduğu kimi tanımır, onun xidmətlərinin konkret nədən ibarət olduğunu, Şuşaya hücumunun, Gürcüstanı işğal etməsinin əsas məqsədini bilmirdim. Ancaq Ə.Tahirzadənin kitabı bu azman imperatoru bizə tanıtdı. Heç demə, onun ən böyük xidmətlərindən biri şimallı-cənublu Azərbaycan torpaqlarını birləşdirmək olmuşdur.

Kitabda Ağaməhəmməd şahın sərkərdəlik məharəti, hücum və müdafiə taktikası da bizim bilmədiyimiz maraqlı faktlarla işıqlandırılmışdır.

Ə.Tahirzadə Ağaməhəmmdə şah Qacarın Şuşaya yürüşünün səbəbini belə izah edir:

*"Rusların Qafqazda işğalçılıq siyasətinin qarşısını almaq, Nadir şahın ölümündən sonra sərbəstləşmiş quzey torpaqlarının Rusiyaya meyilli başçılarının, xüsusən Qacarlara tabe olmaqdan boyun qaçırmış Gürcüstan hökmdarı II İraklini və... Qarabağ xanı İbrahimxəlil xanı cəzalandırmaq məqsədiylə hərbi yürüşə hazırlaşan Ağaməhəmməd şah diplomatik fəaliyyəti genişləndirdi. ...O, İstanbula elçilər göndərərək Rusiyaya qarşı danışıqlar apardı".*

Bu faktları oxuduqca tariximizə yenidən baxmaq, istiqlal mübarizəsi aparan, torpağımızın hər çınqa daşını göz bəbəyi kimi qoruyan hökmdarımızın bədii obrazını ədəbiyyata gətirmək zərurətini düşündüm:

*Özgə dədələri dədələşdirib*
*Nə qədər söymüşük öz dədəmizi.*
*Gəlmə doğmam olub, öz doğmam – qərib;*
*O ulu dədələr əfv etsin bizi.*

*Gül dəstəsi bilib özgə daşını,*
*Bəzən gəlmələrə "xilaskar" dedik.*
*Qacar yadellidən qan qardaşını*
*Qorudu, biz ona "qəsbkar" dedik.*

Tariximizin bizə şərəf gətirən səhifələrini biz hələ bu vaxta qədər xalqımıza çatdırmamış, əksinə, onu çaşdırmışıq. Bu baxımdan Sabir Rüstəmxanlının rus işğalına qarşı son damla qanına qədər mübarizə aparmış (yeri gəlmişkən, Qacarlardan çıxmış) Gəncə hökmdarı Cavad xan haqqında yazdığı "Gəncə qapısı" poeması təqdirəlayiqdir.

Çox təəssüf ki, bizim bəzi qüdrətli şahlarımız isə birləşib ümumi düşmənə qarşı birgə mübarizə aparmaq əvəzinə, qısqanclıq bəlasından bir-biriini əzmişlər. Böyük türk imperatoru Əmir Teymr Toxtamışı əzməklə sonralar Rusiyanın Türküstanı (Orta Asiyanı) rahatca işğal etməsinə şərait yaratdı.

Mən deyərdim ki, Şah İsmayılla Sultan Səlim arasında gedən Çaldıran müharibəsi qüdrətli türk dünyasını zəiflətdi, onun belini qırdı. Mərhum şairimiz Şahmar Əkbərzadənin:

*Utanım yerinə, ay Sultan Səlim,*
*Utanım yerinə, ay Şah İsmayıl –*

misralarında nə böyük həqiqət var.

Milli marşın müəllifi böyük türk şairi Mehmet Akif Ərsoyun dediyi kimi:

*"Tarix təkrar olur deyirlər. Əgər tarixin dərslərindən ibrət götürsəydik tarix təkrar olardımı?".*

Bəli, həqiqətən, biz türklər tarixin dərslərindən ibrət götürə bilməmişik və bu gün də bir-birimizin təəssübünü çəkə bilmirik.

Ə.Tahirzadənin bu kitabından öyrənirik ki, Ağaməhəmməd şah Qacar *"bütün hakimiyyəti boyunca məhz türk tayfalarını: avşarları, xalacları, bayatları, qaragözlüləri və b. özünün hərbi-siyasi qüvvəsinin dayağına çevirdi. Onun və sonrakı bütün Qacar şahlarının çağında (1925-ədək) sarayın və ordunun dili əsasən doğma türk diliydi".*

Bu böyük həqiqətləri xalqa çatdırdığına görə mən Ə.Tahirzadəyə dərin-dərin təşəkkürlərimi bildirir və bu kitabın respublikamızın hər yerində yayılmasını arzulayıram.

İstəyirəm ki, xalq yalnız alim və sənətkarını deyil, qüdrətli sərkərdələrini, dövlət xadimlərini, Vətən və Birlik eşqinə qılınc çalan böyük imperatorlarını da tanısın.

**1 may 2002.**

# YAZARDAN

Şanlı böyüklərimizi öz gözümüzdə kiçiltməkçün düşmən nələrə əl atmayıb?! El yolunda, torpaq, Vətən yolunda canlarını qurban vermiş neçə-neçə qəhrəmanımızı indiyə qədər də söyməkdə, onların müqəddəs ruhunu incitməkdəyik. Bu ləyaqətli ulularımızdan biri də XVIII yüzildəki qürur qaynaqlarımızdan olan Ağaməhəmməd şah Qacardır. Nə yazıqlar ki, *"Qacar"* dedikdə soydaşlarımız hər şeydən öncə Səməd Vurğunun *"Vaqif"* dramındakı "qatır cinsisiniz doğub-törəməz", "mayan turş ayrandır, zatın qırıqdır" kimi tükürpədən təhqirləri yada salır, həmin şairin Qacarın dilindən söylədiyi:

*Bir boynu olsaydı bəşəriyyətin,*
*Onu bir qılıncla vurardım yəqin -*

beytini xatırlayır və bu böyük Qacar imperatoruna məhz S.Vurğunun sözləriylə qiymət verir!

Təəssüf ki, Əbdürrəhim bəy Haqverdiyevdən (1870-1933) başqa, demək olar ki, heç bir Azərbaycan alim və yazıçısı, düşüncə və söz adamı ölümündən keçən 200 ildə Ağaməhəmməd şahın üzərinə ən müxtəlif düşmənlərimizin yaxdığı ləkələri təmizləməyə azca da olsa çalışmayıb. Məhz Əbdürrəhim bəy ilk dəfə olaraq *"Ağaməhəmməd şah Qacar"* (1907) adlı faciəsində  böyük imperatorumuzu xalqının sevgisini qazanmağa can atan, düşməni silahdan çox tədbirlə məğlub etməyə üstünlük verən, özünü heç bir çətin durumda itirməyən ağıllı, təmkinli və tədbirli hökmdar, ölkəsini işğalçılardan təmizləyən, bacarıqlı sərkərdə, beynəlxalq siyasi şəraiti yaxşı bilən və müharibə qanunlarına dərindən bələd olan mahir diplomat kimi səciyyələndirib, onun şəxsi faciələrinin və bəzən onu amansız olmağa sövq edən amillərin mahiyyətini açmağa çalışıb.

Təəssüf ki, Əbdürrəhim bəyin açdığı gərəkli cığır nəinki yola çevrilmədi, əksinə, tezliklə onu kol-kos basdı. Azərbaycanda xüsusən sovet dövründə – Stalin çağlarında çıxmış elmi və bədii əsərlərdə Ağaməhəmməd şahın həyatı, işləri və düşüncələri başdan-başa qərəzli təhrif edilib; həmin əsərlər saysız yanlışlıqlarla, təhqirlərlə doludur. Nə yazıq ki,

bütün yazarlarımız tarixi qaynaqlara üz tutaraq gerçəklikləri öyrənmək əvəzinə, rus alimi P.Butkovun, rus mütləqiyyətinin diktəsi ilə yazılmış çeşidli "Qarabağnamə" müəlliflərinin XIX yüzildə söylədiyi ağ yalanları bugünədək tutuquşu kimi təkrarlamaqdadır.

Nə qədər ürəkağrıdan olsa da deməliyik ki, 1995-ədək – Qacarlar nəslinin ləyaqətli oğlu, akademik Çingiz Qacarın Qacar sülaləsindən çıxmış böyük şəxsiyyətlərə, o sıradan Ağaməhəmməd şaha da həsr etdiyi yazıların yer aldığı dəyərli *"Qədim və orta əsrlər Azərbaycanının görkəmli şəxsiyyətləri"* kitabının ilk nəşrinədək (rusca) bu böyük Azərbaycan imperatorunun bütün ömür yolunu işıqlandıran heç bir Azərbaycan müəllifinin ayrıca yazısına rast gəlmirik.

Akademik Çingiz Qacarın elmi və poliqrafik baxımdan yüksək səviyyədə nəşr olunmuş (təəssüf ki, yalnız rusca) *"Qacarlar"* (2001) kitabısa Azərbaycan oxucusuna çox dəyərli hədiyyədir. Bütün Qacar nəslinin soyağacını ən dəqiqliklə incələyərək bərpa etmiş görkəmli alimin bu yazılarının elmi ictimaiyyətimizdə və ümumən xalqımızda Qacarlar, o sıradan imperator Ağaməhəmməd şah haqqında yanlış düşüncələrin aradan qalxmasında mühüm rol oynayacağına əminik.

Təbii ki, Çingiz Qacarın əsərlərini bu mövzudakı yazıların sonu yox, yalnız uğurlu başlanğıcı kimi dəyərləndirməli, başqalarıyla yanaşı, bu azman türk xanədanı haqqında da araşdırmaları gündən-günə genişləndirməli, çoxlu elmi, bədii və publisist əsərlər ortaya qoymalıyıq – bunu Azərbaycanın milli mənafeyi tələb edir.

Görkəmli türk xaqanı Ağaməhəmməd şah Qacar haqqındakı bu əsəri biz Ağaməhəmməd şahın işlərindən zövq ala-ala, onu sevə-sevə hazırlamışıq və bu zaman bircə istəyimiz olub – soydaşlarımız da özünün bu ulu imperatorunu bizim kimi sevsin!

Universitet auditoriyalarında Azərbaycan ziyalılarının milli ruhlu bir neçə nəslini yetişdirmiş, ölməz əsərləriylə milyonlarca soydaşımıza yurdsevərlik və elsevərlik dərsi keçmiş görkəmli xalq şairimiz, akademik Bəxtiyar Vahabzadə lütfkarlıq göstərərək bu əsərə «Ön söz» yazdı. Sözsüz ki, Bəxtiyar müəllimi bu işə sövq edən, hər şeydən öncə, onun Ağaməhəmməd şah Qacar şəxsiyyətinə hörmətidir. Vaxtilə tələbəsi olmağımdan qürur duyduğum sevimli müəllimimi yazdığı dəyərli «Ön söz»ə görə şükranla anır, Tanrıdan ona rəhmət diləyirəm.

Ruhu şad olsun!




Ağaməhəmməd xan Qacar

# Ağaməhəmməd şah QACAR

**Azərbaycan** Qacar imperiyasının qurucusu və ilk hökmdarı Ağaməhəmməd şah Məhəmmədhəsən xan oğlu Qacarın özü və yaratdığı dövlət millətimizin çoxminillik tarixində şərəfli yer tutur. XVIII yüzildəki dünya hökmdarları içərisində xüsusi mövqeyi olan, 1779-dan 1925-ədək 146 il ağalıq etmiş möhtəşəm bir xanədanın bu böyük yaradıcısı 14 mart 1742-də (bəzi qaynaqlarda: 20 oktyabr 1741-də) Xəzər dənizinin cənub-şərqində yerləşən Əstərabad vilayətinin (Mazandarandadır) dənizdən 36 km aralıdakı Əstərabad şəhərində doğulub.

Böyük Əmir Teymurun (1370-1405) Suriyadan gətirərək Qarabağ, Gəncə və İrəvanda yerləşdirdiyi, Ağqoyunlu Sultan Həsən bəyin (1453-1478) də Diyarbəkirdən Azərbaycana köçürdüyü və Səfəvi dövlətini qurmuş 7 türk oymağından biri olan qacarların nümayəndəsi – görkəmli sərkərdə Qarapiri bəy Qacar (Tozqoparan) da I Şah İsmayıl Səfəvinin (1501-1524) Təbrizə ilk girdiyində onunla çiyin-çiyinəydi.

Tezliklə qacarlar Azərbaycanda hakim mövqelərə ucaldılar. Məsələn, Səfəvi xanədanının Şəkidə ilk hakimi Toyğun bəy Qacardı (XVI yüzil). I Şah İsmayılın vaxtında qacarların bir bölümü Xızır bəy Qacarın da başçılığı altında Azərbaycanda – Gəncə (Cavad xanın da mənsub olduğu Ziyadoğulları tayfası qacarlardandır) və İrəvanda məskunlaşdı.

I Şah Təhmasib (1524-1576) Xızır bəyin oğlu Kəmaləddin Şahverdi xan Ziyadoğlu Qacarı sultan rütbəsi verməklə Qarabağ vilayətinə və Gəncəyə ("bütün qacar el və oymaqlarına") bəylərbəyi təyin etdi (1547). İrəvan vilayətinin (Çuxursəd) hakimləri Əmir Günə xan Qacar (1604) və Qulu xan Qacar idi. İrəvan xanlarısa Rusiya bu torpağımızı XIX yüzildə işğal edib ermənilərə verənədək başdan-başa "Ziyadoğulları" soylu qacarlardandı. Qacarlar Səfəvilər çağında Azərbaycan, Kaxetiya, Gilan, Damğan və Bistam, Qəndəhar, Xorasan və b. yerlərdə hakimlik edirdilər.

Şahverdi sultanın oğlu Xəlil xan bir müddət sonra Mazandaranın başlıca şəhəri Əstərabadın hakimi oldu və bu şəhərdə qacarlar onun zamanında yurdlaşdılar. Qacarların getdikcə artan nüfuzundan çəkinən, eyni zamanda imperiyanın ucqar sınırlarını möhkəmlətmək istəyən I Şah Ab-

bas (1587-1628) 1597-də Hüseyn xan Ziyadoğlu Qacarı Əstərabad vilayətinə hakim təyin edəndə də qacarların böyük bir hissəsi Azərbaycandan Əstərabada köçmüşdü (ancaq qacarların özəyi Azərbaycanda qalmışdı və Gəncə qacarların paytaxtı, Qarabağsa yaylağıydı; onlar ruslar Gəncəni 1804-də tutanadək burada ağalıq etdilər).

Əstərabaddakı qacarlar iki yerə bölünmüşdü – Aşağıbaş (Qoyunlu/Qovanlı) və Yuxarıbaş (Dəvəli) qacarları. Ağaməhəmməd şahın atası Məhəmmədhəsən xan Aşağıbaşdan, anası – Məhəmməd xan Qacar Dəvəlinin bacısı Ceyran xanımsa Yuxarıbaşdandı.

Əstərabad qacarları Səfəvi dövlətinə son günədək arxa durdular. Aşağıbaşlı Mehdi xanın oğlu Şahqulu xanın oğlu Fətəli xan Qacar (1685/6-1726) öz atlı qüvvələriylə I Sultan Hüseyn Səfəvinin (1694-1722) yardımına getmiş, onun oğlu II Təhmasibin (1722-1732) sərəsgəri (ordu komandanı) və bəylərbəyi olmuşdu. Onun xidmətlərinin qarşılığında I Sultan Hüseyn minnətdarlıq əlaməti olaraq Fətəli xan Qacara öz çoxsaylı arvadlarından birini – hamilə Əminə xanımı hədiyyə etdi (deyilənə görə, belə hədiyyə yalnız ən hörmətli şəxslərə göndərilir və çox dəyərli sayılırdı). Əminəni hörmətlə qəbul edən Fətəli xan onun şahdan olan oğlu Məhəmmədhəsən xanı sonralar özünün varisi təyin etdi. Əslində I Sultan Hüseynin oğlu olan həmin Məhəmmədhəsən xan Qacar Ağaməhəmməd şah Qacarın atasıdır.

Fətəli xanın çağında qacarlarla Nadir xan (sonrakı Nadir şah Əfşar) (1736-1747) arasında qanlı savaşlar başlandı. 1726-da Nadir xan Fətəli xanı öldürtdü və bu, qacarlarla əfşarlar arasında uzun sürən düşmənçilik yaratdı. (Sonralar Fətəli şah Qacar hakimiyyətə gələrkən Heratdakı rəqibi – Nadir şahın nəvəsi Şahrux Mirzənin oğlu Nadir Mirzəni məğlub edib öldürərkən elə bu hadisəni nəzərdə tutaraq demişdi: "Nadir Fətəlini öldürdü, Fətəli də Nadiri"). Qacarlara Fətəli xanın (Sultan Hüseynin) oğlu Məhəmmədhəsən xan başçılıq etdi; o, Nadirin əlindən qaçıb Əstərabadı tutdu. Nadir şah taxta oturunca Əstərabadda, Mərvdə və başqa yerlərdə olan qacarları qılıncdan keçirdi. Məhəmmədhəsən xan türkmənlərin yanına qaçmalı oldu.

Nadir şahdan sonra Əfşar taxtında oturan Adil şah (1747-1748) Məhəmmədhəsən xan Qacarı özünün Məşhəddəki sarayında eşikağasıbaşı təyin etdi. Ancaq o, şahla dalaşaraq yenidən türkmənlərin yanına qaçdı. Məhəmmədhəsən xan Adil şahdan sonra Nadir şahın nəvəsi Şahrux Mirzənin (1748-1796) Xorasanda şahlıq taxtında əyləşməsinə (1748) yardım